# Fədakar müəllim

Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru, tanınmış alim Şöhlət Kərimov respublikanın hüquq ictimaiyyətinin qabaqcıl nümayəndələrindəndir. Elmi və insani keyfiyyətləri bir-birini tamamlayan Ş.Kərimovun Azərbaycan hüquq elminin inkişafında, həmçinin hüquqşünas kadrların hazırlanmasında əvəzsiz xidmətləri var.



Yüksək pedaqoji məharəti, hüquq elminə səmimi bağlılığı şərəfli ömür yolunun 60-cı pilləsinə - kamillik zirvəsinə yetişən Şöhlət müəllimin həyatının geridə qalan mənalı illəri ilə qürur duymağa tam haqqı çatır.

Şöhlət Müzəffər oğlu Kərimov 26 mart 1956-cı ildə Ağdam rayonunun Əhmədavar kəndində anadan olmuşdur. 1974-cü ildə Ağdam şəhər 8 saylı orta məktəbi bitirdikdən sonra sovet silahlı birləşmələrinin tərkibində Rusiyanın Murmansk vilayətində hərbi xidmətdə olmuşdur.

Şöhlət Kərimov 1978-ci ildə illərlə arzusunda olduğu Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Hüquq fakültəsinin əyani şöbəsinə daxil olmuşdur. Tələbəlik illərində sevib-seçdiyi hüquqşünas ixtisasının kamil bilicisi olmaq üçün kitablardan əl çəkməyib. 1983-cü ildə universiteti müvəffəqiyyətlə bitirən Ş.Kərimov gənc hüquqşünas kimi 1984-1987-ci illərdə BAPZ-da hüquq məsləhətçisi, 1987-ci ildən 1994-cü ilə kimi Azərbaycan Dövlət Neft Akademiyasının Fəlsəfə kafedrasında baş müəllim vəzifəsində işləmişdir. Bu illər ərzində universitet müəllimlərindən aldığı nəzəri bilikləri təcrübədə daha da təkmilləşdirən Ş.Kərimov 1994-cü ildən 2001-ci ilə qədər Azərbaycan İctimai-Siyasi Universitetində Hüquq fənləri kafedrasına baş müəllim, Hüquq fakültəsinin dekan müavini, sonra isə Qiyabi fakültənin dekanı vəzifələrinə irəli çəkilmişdir.

Şöhlət Kərimov ürəkdən bağlandığı bu peşənin daha da dərinliklərinə getmiş və 2001-ci ildə namizədlik dissertasiyası müdafiə edərək hüquq üzrə fəlsəfə doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. O, 2002-ci ilin mart ayından 2004-cü ilin sentyabr ayına qədər Müstəqil Azərbaycan Universitetində Hüquq elmləri kafedrasının, sonra isə Cinayət hüququ və cinayət prosesi kafedrasının müdiri vəzifəsində elmi-pedaqoji fəaliyyətini davam etdirmişdir. Eyni zamanda 2001-ci ildən 2013-cü ilədək Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəçiliyinin hüquqi təminatı, daha sonra isə Dövlət quruculuğu və hüquq kafedralarında çalışmışdır.

2004-cü ilin sentyabrından respublikamızın nüfuzlu elm ocaqlarından sayılan Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasında çalışan Şöhlət Kərimovun müxtəlif qəzet və jurnallarda 100-dən artıq elmi məqaləsi dərc olunmuşdur. Bundan başqa, bu illər ərzində hüquqşünas-pedaqoqun "Hökmün icrasının prosessual aspektləri", *("Maarif" nəşriyyatı, Bakı, 2002),* "Beynəlxalq terrorizm: onunla cinayət-hüquqi və kriminoloji mübarizənin aktual problemləri" *("Qanun" nəşriyyatı, Bakı, 2006, birgə müəlliflikla),* "Cinayət prosesində sübutetmə" *("Elm və Təhsil" nəşriyyatı, (dərs vəsaiti, Bakı, 2009)* kitabları işıq üzü görmüşdür.

Çox yaxşı tanıdığım və ən yaxın həmkarlarımdan olan Ş.Kərimov təbiətcə sakit, təmkinli, mədəni, münasibətlərində xeyli diqqətli və xoşrəftar bir insan olmaqla yüzlərlə adamın xeyirxahına çevrilmişdir. Şöhlət müəllimi respublikanın elmi ictimaiyyətinə sevdirən əsas keyfiyyətlərdən biri də onun ədalətli, obyektiv olması, işdə və həyatda qanunun aliliyinə ehtiramla yanaşmasıdır. Mənəviyyatı maddiyyatdan uca tutan Şöhlət müəllim üçün xeyirxahlıq həmişə həyat kredosu olmuşdur.

Şöhlət müəllim deyir ki, həyatda alim kimi, pedaqoq kimi hansı uğurları qazanmışamsa, yaxşı insan kimi nələrə nail olmuşamsa, buna görə ilk növbədə unudulmaz müəllimlərimə, respublikamızın görkəmli alimlərindən AMEA-nın müxbir üzvü, professor Teymur Vəliyevə və professor Cəfər Mövsümova borcluyam. Bu böyük alimlərin hər biri ayrılıqda mənim üçün əlçatmaz bir zirvədir. Mən onlardan elmlə yanaşı xeyirxahlığı, xalqıma və vətənimə təmənnasız xidməti öyrənmişəm.

Təvazökar insan və yüksək intellektə malik Şöhlət Kərimovun Azərbaycan hüquq elminin inkişafında və hüquqşünas kadrların hazırlanmasında xidmətləri çoxdur. Dərin elmi biliklərə malik tədqiqatçı olmaqla yanaşı, Şöhlət müəllim həm də təcrübəli pedaqoq kimi yüksək ixtisaslı kadrların və zəngin elmi potensiala malik gənc alimlərin hazırlanmasında əvəzsiz xidmətlər göstərmişdir. Təsadüfi deyil ki, Ş.Kərimov 2001-2016-cı illər ərzində Cinayət prosesi ixtisası üzrə 26 dissertasiya işinə rəsmi opponentlik etmişdir.

Ş.Kərimov 2009-2014-cü illərdə Milli Aviasiya Akademiyasında fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü və həmin şuranın nəzdində fəaliyyət göstərən Elmi Seminarın sədri olmuşdur.

Təcrübəli hüquqşünas 2015-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun nəzdindəki Dissertasiya Şurasının üzvü olmaqla gənc hüquqşünas alimlərin hazırlanmasında əlindən gələni əsirgəmir.

Alim elmi əsərləri ilə yanaşı, dövri mətbuatda tez-tez publisistik məqalələrlə də çıxış edir.

Prezident İlham Əliyevin apardığı uzaqgörən və uğurlu siyasətinə daim sadiq olduğuna, fəaliyyətində demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, sağlam cəmiyyət prinsiplərini rəhbər tutaraq təhsil sahəsində qazandığı uğurlarına, ali təhsil müəssisələrində peşəkar hüquqşünas kadrların hazırlanmasındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Şöhlət Müzəffər oğlu Kərimov 2009-cu ilin nəticələrinə görə "İlin ən yaxşı təhsil işçisi" diplomuna layiq görülmüşdür.

Zəngin elmi təcrübəyə malik Ş.Kərimov 2002-2005-ci illərdə təhsil nazirinin müvafiq əmri ilə respublikanın müxtəlif ali təhsil müəssisələrində hüquqşünaslıq ixtisası üzrə Buraxılış Yekun Dövlət Attestasiya Komissiyasının sədri kimi fəaliyyət göstərmişdir. Ş.Kərimov işlədiyi dövrdə tədris etdiyi fənlər üzrə tələbələrə yüksək peşəkarlıqla hüquqi bilikləri öyrətməyə çalışmış və tədris prosesinin keyfiyyətlə həyata keçməsinə nail olmuşdur.

Ş.Kərimov Milli Aviasiya Akademiyasında tələbələrin elmi işlərə cəlb olunmasına böyük səy göstərir. Onun təşəbbüsü ilə hüquq elminin müasir problemlərinə həsr olunmuş bir sıra elmi seminarlar, konfranslar keçirilmiş və bu tədbirlərdə tələbə fəallığı iştirakçıları məmnun etmişdir. O, respublikanın elmi və tələbə ictimaiyyəti arasında böyük hörmət və nüfuz sahibidir.

Dosent Ş.Kərimov yüksək ictimai təfəkkürə və siyasi yetkinliyə malik vətəndaş kimi ölkədə gedən siyasi proseslərin fövqündə olmaqla ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiqdir. Prezident İlham Əliyevin apardığı xarici və daxili siyasətə vətəndaş mövqeyi ilə həmişə dəstək olur və bu ideyaların reallaşmasında böyük fəallıq göstərir. Tanınmış alim-pedaqoq Ş.Kərimov yüksək mənəvi və zəngin əxlaqi keyfiyyətləri ilə həmkarlarına örnəkdir.

***Alış QASIMOV,***
***professor***